

*Henri İtaly*

**Henri İtaly**

# RUHUMDAN SÜZÜLƏN SƏTİRLƏR

QANUN NƏŞRİYYATI

Bu kitab təkcə sevgi hekayəsi deyil, bu, bir insanın öz ruhuna etdiyi səyahətdir. Dublinin tarixi küçələri... Sərgidə qarşılaşan iki doğma ruh... Və yarımçıq qalan hisslərin ağrısı... Oxucu bu hissləri oxuyanda sevginin ilk həyəcanı ilə tanış olacaq.

“İçimdəki Henri” hissəsində müəllif insanın öz içindəki ikinci “mən”lə üzləşir – baş tutmayan arzular, susdurulmuş duyğular və qaça bilmədiyi həqiqətlərlə. “Gəncliyimə məktub” isə zamanla dialoqdur: itirilmiş illər, peşmanlıqlar, amma eyni zamanda, güclənmiş iradə və özünü anlama prosesi. Sənin səhvlərinin və başqasının səhvlərinin ömrümüzdə buraxdığı dərin izləri göstərir. “Söndürmədiyim işıq” isə daxili azadlığı qorumağın və işığı sönmədən saxlamağın gücünü vurğulayır.

“Henri və Joliya” romanı xəyali bir qadın obrazının hekayəsindən bəhs edir. Sevgi əvvəl-əvvəl yazıda doğulur, baxışda böyüyür, toxunuşda tamamlanır və birlikdə qurulan həyatla ömrə çevrilir.

Bu əsər oxunmaq üçün deyil – hiss etmək və öz daxili dünyanda rezonans yaratmaq üçün yazılıb. Hər hekayə bir ruhun izidir.

## Müəllif haqqında

Bu kitabın müəllifi Henridir – amma bu onun əsl adı deyil. Henri – onun içində gizlənən yazıçının, şairin və sevdalının adıdır. O, 1995-ci il, 1 yanvar tarixində Azərbaycan Respublikasının Qusar rayonu Atlıxan kəndində dünyaya gəlib. Henri bu romanı heç kimə yox, öz içində xəyal və təsəvvür etdiyi qadına – Joliyaya yazıb. Bəlkə də, ömrü boyu özünə yaraşan bir qadını axtardı. Tapmadı. Tapmaq istəsə də, əvvəlcə onu öz daxilində yazmalı oldu. Bu roman həmin yazıdan doğdu. Henri üçün yazmaq sadəcə yaşamaq deyil. Yazmaq – toxunmadan sevmək, baxmadan tanımaq və bir qadını sətirlərlə sevməkdir. Bu kitab onun içində sükutla dünyaya gələn bir sevgidir. Sətirlər bədənə toxunmur – ruhun dərinliyinə süzülür.



## YARIMÇIQ TABLO

Venesiyanın dar, köhnə daş küçələrindən birində kiçik bir qalereya yerləşirdi. Divarlardan asılmış tablolar lal-dinməz dayanmışdı. Sanki onların hər biri öz səsini içinə çəkmişdi. Amma bir tablonun qarşısında dayanan qadın bütün otağın işığını özündə cəmləmişdi. Onun uzun, bir az qarışıq tünd saçları çiyinlərinə tökülmüşdü. Dərin yaşıl gözləri sakit idi, amma o sakitliyin altında ifadə olunmayan bir gərginlik hiss olunurdu. Tablo isə dərin mavi tonlarda idi – dənizlə göyün sərhədi bilinmirdi, sular susur, qayıqlar demək istədiklərini gizlədirdi. Qadın əlini çənəsinə qoyub bir az irəli əyildi.

– Bu tablo... – astadan dedi. – Tam deyil. Amma yarımçıq da yox.

Roberto bir anlıq susdu. Tabloya baxdı, sonra ona. Bu cümlə təsadüfi deyildi. Çünki rəsmi çəkərkən özü də harada dayandığını bilməmişdi.

– Mən də elə bunu hiss edirdim, – dedi. – Amma indiyə qədər heç kim bunu bu cür deməmişdi.

Qadın başını azca çevirdi. Baxışları Robertoya toxundu, sonra yenə rəsmdə ilişib qaldı.

– Bəzən insan nəyin çatmadığını anlayır, – dedi. – Amma niyə çatmadığını bilmir. Elə bil yaddaşdan silinmiş bir hissə var.

Roberto diqqətlə ona baxdı. Artıq bu sadəcə maraq deyildi, qadın Robertonun içində sönmüş hissləri oyadırdı.

– Siz bu tablonu ilk dəfə görürsünüz? – soruşdu.

– Bəli. Amma qəribədir... – qadın bir anlıq dayandı. – Elə bil ikinci dəfə baxıram.

Bu söz Robertoya toxundu. İçində səbəbsiz bir narahatlıq yarandı.

– Bəlkə də, bəzi tanışlıqlar ilk görüşdə başlamır, – dedi.

Qadın bu dəfə ona tam çevrildi. Gözlərində heyranlıq yox idi. Daha təhlükəli bir şey vardı – tanımaq qorxusu.

– Əgər belədirsə, – dedi, – insan bəzən tanıdığı şeyi itirməkdən də qorxur.

Roberto cavab vermədi. İlk dəfə idi ki, bir tamaşaçı onu susdurmuşdu. Bu qadın Robertoya, sanki keçmişdə yarım qalan xatirələri hiss etdirirdi.

Ertəsi gün qalereya yenidən açıldı. Roberto tabloların arasından keçirdi, amma baxışları dünənki səhnəyə qayıdırdı. O qadın yenə oradaydı – eyni tablonun qarşısında.

– Salam... – Roberto dedi. – Yenə burada olmağınız maraqlıdır.

Qadın baxışlarını tablodan ayırmadan cavab verdi:

– Dünənki sərgi qəribə təsir buraxdı. Elə bil sözlər kifayətsiz qaldı.

– Dünənki baxışlar hələ də ağlımdadır, – Roberto sakitcə dedi.

Qadının üzündə xəfif təbəssüm peyda oldu.